***Azərbaycan Texniki Universitetinin "Maşın dizaynı və sənaye texnologiyaları" kafedrasının professoru U.M. Nadirov tərəfindən tərtib edilmiş "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiyaya***

# R Ə Y

Təqdim olunmuş monaqrafiya maşınqayırmanın mühüm problemlərindən biri olan keyfiyyətin idarə edilməsi məsələsinə, məmulların istehsal keyfiyyətlərini idarə etməklə istismar göstəricilərinin yüksəldilməsi məsələsinə həsr olunmuşdur. Məlumdur ki, maşınqayırmada emal prosesinin səmərəliliyinin və keyfiyyətin yüksəldilməsi maşınqayırmanın hər zaman aktual məsələsini təşkil edir.

Monoqrafiyada yeni mütərəqqi emal üsul və texnologiyalarının, nəzarət vasitələrinin təhlili texniki konstruksiyada, texnoloji proseslərdə təsirdə olan iki və çoxtərəfli konstruktiv və funksional əlaqələrin aşkar edilməsi, onların araşdırılması və sintezi, həmçinin vəhdət halında məqsədyönlu idarə edilməsi məsələlərinə geniş yer verilmişdir.

Monoqrafiya maşınqayırmada məmulun, onun tərkib hissələrinin istehsal keyfiyyətlərinin formalaşdırılmasının ümumiləşmiş konsepsiyasının işlənməsinə, istehsal və istismar keyfiyyətləri göstəriciləri arasındakı funksional əlaqə əsasında məmuldan istifadənin yüksək səmərəsini təmin edən istehsal keyfiyyətinin yüksəldilməsi istiqamətinin müəyyən edilməsinə həsr edilir. Burada müəyyən edilmişdir ki, istehsal keyfiyyəti göstəricisi olan ölçülərin orta kvadratik sapmasının kiçildilməsi hətta məmullar dəsti üçün ümumi xidmət müddətinin azalmasına səbəb ola bilər. Bununla bərabər etibarlığın yüksəldilməsi üçün ilk növbədə səpələnmə mərkəzinin yüksək istehsal keyfiyyət göstəricisi istiqamətində sürüşdürülməsi təhlil edilmişdir.

Monoqrafiyada texniki vasitələrin istehsal və istismar keyfiyyətlərini qiymətləndirmək üçün işlənmiş yeni üsul və vasitələr təhlil edilir. Təhlil olunan istehsal keyfiyyəti meyarı - əmsalı hər bir hissənin keyfiyyətini yalnız bir meyyarla və kompleks halda qiymətləndirməyə və digər hissənin keyfiyyəti ilə müqayisə etməyə imkan verdiyi geniş şərh edilmişdir.

Monoqrafiya sadə dildə yazılmış, mövcud terminoloji tələblərə uyğundur. Təqdim edilmiş monoqrafiya ali təhsil müəssisələrinin "Maşınqayırma texnologiyası" ixtisası üzrə təhsil alan tələbələr, doktorantlar, müəllimlər və bu sahə üzrə sənaye müəssisələrinin mühəndis heyyəti də səmərəli şəkildə istifadə edə bilərlər.

Rəyə təqdim olunan monoqrafiya müasir tələblərə cavab verə biləcək səviyyədə tərtib olunmuşdur. Beləliklə, Uğurlu Məhəmməd oğlu Nadirovun təqdim etdiyi monoqrafiyanın əhəmiyyətli olduğunu nəzərə alaraq, onun nəşr olunmasını tövsiyə edirəm.

AzTU, "Maşınqayırma texnologiyası"
kafedrasının müdiri, t.e.d., prof. N.D. Yusubov

Azərbaycan Texniki Universitetinin "Maşın dizaynı və sənaye texnologiyaları" kafedrasının professoru U.M. Nadirov tərəfindən tərtib edilmiş **"Məmulların istehsal keyfiyyətləri və istismar göstəricilərinin idarə edilməsi"** məzmunlu monoqrafiyaya

# RƏY

Rəyə təqdim edilmiş "Məmulların istehsal keyfiyyətləri və istismar göstəricilərinin idarə etməsi" adlı monoqrafiya müasir maşınqayırma sənayesinin aktual məsələlərindən birinə həsr edilmişdir.

Monoqrafiya, maşınqayırma sənayesində məmul istehsalının keyfiyyətinin və istismar göstəricilərinin idarə olunması məsələlərini əhatə edir. Müasir texnologiyalar və metodlardan istifadə edərək, istehsal proseslərindəki effektivliyi artırmaq və istismar müddətində məmulun etibarlılıq göstəricilərini optimallaşdırmaq üçün yeni yanaşmalar təqdim edilmişdir. Eyni zamanda, maşınqayırmada istehsal keyfiyyətlərinin artırılması və istismar göstəricilərinin yüksəldilməsi mövzusunda tətbiqi metodlar və nəzəri əsaslar ətraflı şəkildə izah edilir. Əlavə olaraq, məmulun istismar dövründə qarşılaşan problemlərin həlli və istehsal proseslərindəki keyfiyyət çatışmazlıqlarının aradan qaldırılması üçün yeni yanaşmalar təhlil olunur.

Monoqrafiyada məmulların hazırlanması və istismarı zamanı təsirdə olan əlaqələrin ümumiləşdirilmiş konsepsiyası, mexaniki emal və istismar proseslərində təsirdə olan əlaqələri idarə edilməsi, istehsal keyfiyyətini, keyfiyyət resursunu qiymətləndirmənin yeni üsul, vasitə və metodları geniş izah edilir. Məmulların və onların hissələrinin istehsal və istismar keyfiyyətləri əlaqələrinin ümumiləşdirilmiş konsepsiyası, istehsal şəraitini də nəzərə almaqla istehsal və istismar keyfiyyətləri əlaqələrinin formalaşması özəllikləri təhlil edilir. Məmullar dəstinin istismar göstəricilərinin istehsal keyfiyyətindən asılılığının riyazi modeli və məmul dəstinin ümumi xidmət müddətlərinin dəyişməsi qanunauyğunluğu verilmişdir. Məmullar dəstinin istismar keyfiyyətini səciyyələndirmək üçün etibarlıq göstəricilərindən biri kimi stabillik meyarının ətraflı izahı təqdim edilir.

Monoqrafiyada maşınqayırma məmullarının tərkib hissələrinin hazırlanması və onların yığılma prosesləri zamanı keyfiyyətin formalaşması mexanizmlərinə geniş yer verilmişdir. Burada mexaniki emal zamanı təsirdə olan həndəsi forma texnoloji əlaqələrini idarə etməklə mürəkkəb profilli firlanma səthlərinin həndəsi forma dəqiqliyinin təmin edilməsi məsələləri əks etdirilir.

Tərtib edilmiş monoqrafiya, "Maşınqayırma texnologiyası" ixtisası üzrə təhsil alan tələbələrə, tədqiqatşılara, mühəndis texnoloqlara faydalı olacaqdır.

Monoqrafiya aydın və səlis dildə, ixtisas üzrə mövcud terminologiya tələblərinə uyğun olaraq tərtib edilmişdir.

Təqdim olunan monoqrafiaya müasir tələblərə cavab verdiyini nəzərə alaraq, onun nəşr olunmasını tövsiyə edirəm.

**"Azərbaycan Dövlət Neft və Sənaye Universiteti"PHŞ-nin**
**"Mexanika" kafedrasının məsləhətçi-professoru:** **t.e.d., prof.Ə.M. Əliyev**

Azərbaycan Texniki Universitetinin "Maşınqayırma texnologiyası" kafedrasının 28 yanvar 2025-ci il tarixli iclasının 05 saylı protokolundan

# ÇIXARIŞ

İştirak etdi: 16 nəfər
İştirak etmədi: 4 nəfər

**4. Müxtəlif məsələlər.**

**4.1. Monoqrafiyanın çapa tövsiyə olunması.**

**DİNLƏNİLDİ:** Kafedra müdiri, t.e.d., professor N.D. Yusubov bildirdi ki, kafedranın elmlər doktoru proqramı üzrə doktorantı olmuş və dissertasiyanı uğurla müdafiə etmiş, hal hazırda "Maşın dizaynı və sənaye texnologiyaları" kafedrasının professoru işləyən t.e.d., prof. U.M.Nadirov "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiya hazırlamış və kafedra iclasında müzakirə olunmaq üçün kafedraya təqdim etmişdir (Monoqrafiyaya aid olan sənədlər: xarici və daxili rəylər təqdim olunur).

**ÇIXIŞ ETDİLƏR**: Məsləhətçi-prof. V.Z.Mövlazadə, məsləhətçi-prof. N.M.Rəsulov, məsləhətçi-prof. H.Ə.Hüseynov, dos. Ə.S.Məmmədov, dos. A.M. Mirzəyev, dos. M.F. Qarayev. Çıxış edənlər qeyd etdilər ki, monoqrafiya maşınqayırma yönümlü istiqamət üzrə təhsil alan ixtisas tələbələri, ümumiyyətlə maşınqayırma profilli bütün istiqamət və ixtisas tələbələri, mühəndis və doktorantlar üçün də çox yararlı hesab oluna bilər. Monoqrafiyaya qrif (nəşr hüququ) verilməsi tövsiyə edilə bilər.

**QƏRARA ALINDI**: T.e.d., prof. U.M.Nadirov tərəfindən tərtib olunmuş "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiya Maşınqayırma və robototexnika fakültəsinin Metodiki Komissiyasına qrif (nəşr hüququ) verilməsi üçün tövsiyə olunsun.

**Qərar səsə qoyuldu:** Lehinə: 16 nəfər.
Əleyhinə: yoxdur.
Bitərəf: yoxdur.

**Qərar yekdilliklə qəbul edildi.**

**İclasın sədri:**
**t.e.d., prof.** **N.D.Yusubov**

**Elmi katib, b/m.** **A.R.Ağayev**

Maşınqayırma və robototexnika fakültəsinin Elmi Şurasının 05 fevral 2025-ci il tarixli iclasının 05 saylı protokolundan

**Ç I X A R I Ş**

İştirak etdi: 17 nəfər
İştirak etmədi: 3 nəfər

**İCLASIN GÜNDƏLİYİ:**

**5.Müxtəlif məsələlər**

**5.2. "Maşın dizaynı və sənaye texnologiyaları" kafedrasının professoru t.e.d. U.M.Nadirovun "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiyasının müzakirəsi.**

**DİNLƏNİLDİ:** Elmi Şuranın sədri, dosent M.F.Qarayev məlumat verərək bildirdi ki, "Maşın dizaynı və sənaye texnologiyaları" kafedrasının əməkdaşı t.e.d., professor U.M.Nadirov tərəfindən "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiya hazırlanmışdır. Həmin monoqrafiya "Maşınqayırma texnologiyası" kafedrasının 28.01.2025-ci il tarixdə keçirilmiş iclasında (protokol №05) və Fakültə Metodiki Qrupunun 05.01.2025-ci il tarixli iclasında (protokol №01) müzakirə edilərək nəşr olunması tövsiyə edilib. Daha sonra o, Elmi Şura üzvlərinin məsələyə münasibət bildirməsini xahiş etdi.

**ÇIXIŞLAR:** Elmi Şura üzvləri t.e.d., prof. N.D.Yusubov, t.e.d, prof. N.M.Rəsulov və t.e.d., prof. H.Ə.Hüseynov təqdim olunmuş monoqrafiyanın həm magistr səviyyəsində təhsil alan tələbələr üçün, həm də elmi-tədqiqat işləri ilə məşğul olan doktorantlar üçün çox vacib və əhəmiyyətli olduğunu bildirərək nəşr olunmasını tövsiyə etdilər.

**QƏRARA ALINDI:** "Maşınqayırma və robototexnika" fakultəsinin Elmi Şurasına təqdim olunmuş, t.e.d., professor, U.M.Nadirov tərəfindən yazılmış "Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi" adlı monoqrafiya nəşr olunmaq üçün tövsiyə edilsin.

**Qərar səsə qoyuldu:**

Lehinə - 17 nəfər
Əleyhinə - yoxdur
Bitərəf - yoxdur

Qərar yekdilliklə qəbul edildi.

**İclasın sədri, t.e.n., dos.** **M.F.Qarayev**

**Elmi katib, b/m** **A.R.Ağayev**

“Maşıqayırma və robototexnika”
fakültəsinin Metodiki Qrupunun
05.02.2025-ci il tarixli iclasının
01 saylı protololundan

**Ç I X A R I Ş**

ştirak etdi: 11 nəfər

İştirak etmədi: - nəfər

**GÜNDƏLİK MƏSƏLƏ**

**Monoqrafiya.**

**1. DİNLƏNİLDİ:** Metodiki Qrupun katibi assistent K.R.Hüseynzadə çıxış edərək bildirdi ki, “Maşın dizaynı və sənaye texnologiyaları” kafedrasının əməkdaşı t.e.d., professor, U.M.Nadirov tərəfindən yazılmış “Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi” adlı monoqrafiya “Maşınqayırma və robototexnika” fakültəsinin Metodiki Qrupunun müzakirəsinə təqdim edilmişdir. Monoqrafiya və tələb olunan sənədlər (kafedranın protokolundan çıxarış, xarici və daxili rəylər) əlavə olunub.

**Sədr** t.e.n., dos. M.F.Qarayev Metodiki Qrupun üzvlərinin məsələyə münasibət bildirməsini xahiş etdi.

**ÇIXIŞ ETDİLƏR**: Çıxış edən ixtisasçı mütəxəssislər (t.e.n. Ş.B.Çərkəsov və b.) öz münasibətlərini bildirərkən, müzakirə olunan monoqrafiyanın həm magistr səviyyəsində təhsil alan tələbələr üçün, həm də elmi-tədqiqat işləri ilə məşğul olan doktorantlar üçün çox vacib və əhəmiyyətli olduğunu qeyd edərək çap olunmasını tövsiyə etdilər.

**QƏRARA ALINDI:** t.e.d., professor, U.M.Nadirov tərəfindən yazılmış “Məmulların istehsal keyfiyyəti və istismar göstəricilərinin idarə edilməsi” adlı monoqrafiya nəşr olunmaq üçün “Maşınqayırma və robototexnika” fakültəsinin Elmi Şurasına tövsiyə olunsun.

**Qərar səsə qoyuldu:**

| | |
|---|---|
| Lehinə: | 11 nəfər |
| Əleyhinə: | yoxdur |
| Bitərəf: | yoxdur |

**Qərar yekdilliklə qəbul edildi.**

**Metodiki Qrupun sədri, pof.** **M.F.Qarayev**

**Metodiki Qrupun katibi** **K.R.Hüseynzadə**

**Metodiki Komissiyanın eksperti** **S.Ş. Əziz**